# HİSSİ İDRAK PROSESİNDƏ «ESTETİK ZÖVQ» ANLAYIŞININ YERİ

OSMAN ƏFƏNDİ

*Məqalədə "Estetik zövq" anlayışına fəlsəfi-estetik fikir tarixində münasibət və bu anlayışın estetik məzmunu araşdırılır. Zövqün estetik məzmununu təşkil edən müxtəlif amillər, onun obyektiv-subyektiv cəhətləri elmi-nəzəri əsaslarla təhlil olunur.*

Estetik idrak formalarından biri olan estetik zövq gerçəkliyin estetik idrakının mühüm xüsusiyyətlərindən biridir. Təsadüfi deyil ki, Aristotel zövqü idrakın xüsusi bir sahəsi hesab edirdi. "Aristotel zövqü oxşarlıq sayəsində tanıma ilə, tanımanı isə idrak problemi ilə bağlayır. Təcəssümünü tanıdığımız şey orijinalına bədii cəhətdən nə dərəcə oxşar olarsa, zövqün dərəcəsi də o qədər artıq olar. Həyatda ikrah doğuran şeylərin sənət əsərindəki təsvirindən aldığımız zövq isə öz növbəsində ona görə mümkün olur ki, onun əsasında insanın idrak marağı dayanır və biz müəyyən bir şeyə baxanda, ona tamaşa edəndə öyrənə və mühakimə yürüdə bilirik ki, fərd olan şey nə deyən şeydir".[1.s.19]

Estetik fikir tarixində zövq təbiətin, cəmiyyətin və incəsənətin estetik mənada dərk olunması və qiymətləndirilməsi kimi səciyyələnir. Bu mənada da o, predmet və hadisələrin estetik xüsusiyyətlərini anlamaq və qiymətləndirmək kimi təqdim olunur. Bu baxımdan zövq haqqında ən mükəmməl anlayış İ.Kanta məxsusdur. Kantın fikrincə, "zövq gözəllik haqqında mühakimə qabiliyyətidir".[2.s.157] Estetik zövqun bu ümumi təsviri ilə razılışmamaq mümkün deyildir. Bu ümumi təsvirdə estetik şüurun və ya onun xüsusi tərəfi olan estetik münasibətin spesifik "təcəssüm forması" kimi təsdiq olunur.Lakin estetik fikir tarixində estetik zövqə münasibət heç də yeknəsək olmamışdır. Məsələn, marksizm estetikasında zövqə insanın ictimai praktikası və hər şeydən əvvəl istehsal fəaliyyətindən doğan, əmək vasitəsilə əmələ gələn bir qabiliyyət kimi baxılmışdır.

Fikrimizcə, idealizm estetikası zövqün mürəkkəb estetik quruluşunda ictimai praktikanın rolunu rədd etməkdə haqsız olduğu kimi, marksizm estetikası da ictimai praktikanın buradakı rolunu həddən ziyadə şişirtməklə onu zövqün yeganə və əvəsziz formalaşma mənbəyi, yaradıcılıq gücü hesab etməklə, anadangəlmə təbii imkanların birbaşa, vasitəsiz, qeyri-adi şəkildə gerçəkləşməsini kölgə altına almaqla, praktikanın fövqündə duran, bəzən

praktikanın özünə yaradıcı güc mənbəyi olan fitri qabiliyyətlərin və ya fenomen keyfiyyətlərin mövqeyini görməməklə haqsız mövqedə durur. Bir çox estetik problemlərin həllində olduğu kimi estetik zövqün həlli məsələsində də marksizm estetikası prosesin estetik mahiyyətini açmağa deyil, onu bir çox tərəflərdən təcrid edərək özünün siyasi platformasının kölgəsində saxlamağa daha çox meylli olmuşdur. Bu zaman o, elmi-fəlsəfi idrak metodlarının deyil, özünün sinfilik nəzəriyyəsinə və ya bu nəzəriyyənin dayağı olan siyasi ideologiyasına arxalanır.

Fikrimizcə, bütün hallarda estetik proseslərə /o cümlədən estetik zövqə/ birtərəfli münasibət, mahiyyəti dərk etmək işində çətinliklər doğurur. Odur ki, proseslərin estetik mahiyyətini açmağa səy edərkən həmin proseslər üçün ikinci, üçüncü dərəcəli əhəmiyyətə malik olan keyfiyyətlərin əlaqə xüsusiyyətlərini ilkin və başlıca məqsəd kimi irəli çəkib qabartmağa deyil, birinci növbədə prosesin öz mahiyyətindən doğan estetik qanunauyğunluqlara üstünlük vermək lazımdır. Bu qanunauyğunluqlara bağlı olan digər əlavə formalar /siyasi, dini, hüquqi, etik və s./ ikinci növbəli amillər kimi səciyyələnə bilər.

**Estetik zövqün məzmununu** təşkil edən ***əsas amillərə*** nəzər salaq.

Digər estetik kateqoriyalar kimi estetik zövq də mürəkkəb tərkibə malikdir. Estetik zövqün mürəkkəb tərkibi onu doğuran və ifadə edən bir çox amillərlə bağlıdır. Lakin fikrimizcə, bunlardan əsas olanı hisslərin estetik tələbatında zəruri mühakimələrin axtarılması və tapılmasıdır. Bu zaman estetik zövq gözəl olanla eybəcər olanın, qəşəng olanla çirkin olanın, xalis olanla naqis olanın, yarımçıq olanla bütöv olanın, əzəmətli olanla cılız olanın qarşılaşdırılması, fərqləndirilməsi imkanlarına əsasən onların qiymətləndirilməsi kimi çıxış edir.

Buna görə də estetik zövqün murəkkəb tərkibindən danışarkən ilk növbədə onun qiymətləndirici xüsusiyyəti üzərində dayanmağa ehtiyac vardır. Lakin onun predmetlərin estetik mahiyyətini anlamaq imkanlarını da kölgədə qoymaq fikrində deyilik. Çünki “anlama” - estetik mənimsəmənin, “qiymətləndirmə” - estetik münasibətin öhdəsinə düşür. Buna görə də estetik zövq estetik mənimsəmə və münasibət tərəflərini özündə birləşdirir. Hər iki tərəf zövqün məzmununa səbəb və nəticə kimi birbaşa daxil olur. Burada ikincinin rolu daha qabarıq olduğundan /həm də nəticə ilə daha tez hesablaşdığımızdan/ o estetik qiymətləndirmənin xüsusi tərəfi kimi səciyyələnir. Beləliklə, ən ümumi mənada estetik zövq predmetlərin, hadisələrin, proseslərin, estetik baxımdan duyulması, anlanıb fərqləndirilməsi, başa düşülməsi və qiymətləndirilməsidir.

Estetik idrakın digər təcəssüm formaları kimi estetik zövq də hissi-emosional və rasional cəhətlərin dialektik əlaqələrindən kənarda qalmır, hətta bu əlaqələrə söykənir, onlardan bəhrələnir. Məhz həmin əlaqələrin güclü təsiri estetik zövqün məzmununa dolğunluq gətirir.

Spesifik məzmuna malik olan estetik zövq obyektiv və subyektiv cəhətlidir. Bu xüsusiyyəti zövqün murəkkəb tərkibini təşkil edin amillərdən biridir.

Predmet və hadisələrin estetik vəziyyəti, mövqeyi, bir sıra hallarda

zövqün vasitəsilə təyin edilir. Bizim həmin predmet və hadisələrin estetik məziyyətləri haqqındakı müsbət və mənfi qiymətlərimiz estetik zövq vasitəsilə üzə çıxır. Bu zaman predmet və hadisələrin estetik tərəfi bizim subyektiv aləmimizin spesifik qanunlarından asılı olaraq zövqün yaranmasına səbəb olur. Beləliklə də zövqün yaranmasında iki tərəf: obyektiv və subyektiv tərəf qarşılıqlı fəaliyyət göstərir.

Zövqün obyektiv cəhəti onu doğuran əsas amil kimi subyektiv cəhətin özünə təsir edir, onu fəallaşdırır. Belə hallarda zövqün obyektiv cəhəti subyektin fərdi münasibətindən asılı olmur. Predmet və hadisələrin estetik təbiətinə dair minlərlə əldə edilmiş ictimai-mənəvi təcrübənin nəticəsi olaraq müəyyən estetik obyektin gözəl və eybəcər cəhətin dəyişməz qanunları müəyyən edilmişdir. Bu cəhətlər vasitəsilə subyektiv zövq estetik meyarları obyektiv cəhətdən hazır şəkildə götürür. /Burada ictimai, dini, əxlaqi ideyaların böyük təsiredici rolunu xüsusi qeyd etməyə ehtiyac vardır./ Bu zaman subyektiv zövq gülün, dağın, şeirin, mərdliyin, səxavətin, ədalətin gözəlliyinə, məftunluqla; bataqlığın, tikanın, boşboğazlığın, yaltaqlığın, zalımlılığın, natamamlığın çirkinliyinə estetik mənada ikrahla yanaşır.

Zövqün obyektiv cəhəti ictimai və estetik ideallarla bağlıdır. Buna görə də o xeyirin və şərin; ideal olanla ideala zidd olanın; əhəmiyyətli olanla zərərli olanın; niyyətə bağlı olanla, arzu olunmazın, həzz verənlə ikrah doğuranın fərqini və ya qiymətini üzə çıxarır. Estetik idrak subyektiv zövqü bəşəri biliyin kamilliyi ilə bəhrələndirilir. Bunun nəticəsi olaraq bəşəriyyətin bir sıra gözəllik meyyarları estetik zövqün məzmununa, xüsusilə onun qiymətverici funksiyasına birbaşa daxil olur.

Lakin belə xüsusi halların olması estetik zövqün obyektiv və subyektiv cəhətlərinin nə geniş dialektik əlaqələrini, nə də olduqca fəal olan subyektiv tərəfin rolunu əhəmiyyətsiz kimi düşünməyə əsas vermir. Çünki zövqün obyektiv və subyektiv cəhətləri bir-birini tamamlayan estetik proses kimi fəaliyyət göstərir.

Estetik zövqün mürəkkəb tərkibi estetik hiss,estetik qavrayış, estetik təsəvvür, estetik həyəcan kimi estetik idrak formaları ilə bağlıdır. Bir qədər nisbi desək, estetik zövq bu formaların təsiri ilə yaranır və onlardan sonrakı həddə mənsub olur. Deməli, estetik zövq hissi idraka xüsusi mərhələ kimi daxil olur və onun təsiri ilə formalaşır.

Beləliklə, estetik zövq hissi-emosional idrakın tərkibində onun formalaşması kimi estetik məna daşıyır.

Estetik zövq mürəkkəb tərkibinə görə həm də məntiqi idrakla bağlıdır. Məntiqi idrak mərhələsində estetik zövq daha yüksək estetik keyfiyyət kimi təcəssüm edir. Bu zaman onun estetik məzmununa daha mürəkkəb estetik idrak formaları: estetik anlayışlar, estetik nəzəriyyələr, estetik mühakimələr və s. nüfuz edir. Lakin bunlardan biri- estetik mühakimə estetik zövqün məzmununa daha sərbəst daxil olaraq, daha mükəmməl rol oynayır. Hər iki estetik anlayışın /zövq və mühakimə/ estetik təbiətləri arasındakı yaxınlıq əsasən qiymət mövqeyində baş tutur. Bu “yaxınlığın” əlaməti kimi hətta “zövq mühakiməsi” ifadəsi də ortaya çıxır. Zövq mühakiməsinin nəzəri mühakimələrdən fərqləndirməyə ehtiyac vardır. Nəzəri mühakimələrdən

fərqli olaraq zövq mühakiməsi estetik məzmunlu həzzin, ləzzətin, fərəhin ümumi emosional yüksəlişindən təcrid olunmur. Buna görə də zövq mühakiməsi hissi və məntiqi idrakın qarşılıqlı təsiri nəticəsində yaranır. Zövqün mühakiməsini hissi və nəzəri cəhət kimi məqsədəuyğyn şəkildə fərqləndirmək mümkün olsa da, onu nə təmiz emosiyaya, nə də təmiz fikrə aid etmək olmaz. Çünki zövqün mühakiməsi həm hissə, həm də ağıla məxsus olmaqla, ikili xarakter daşıyır.

Estetik zövq fərdi və ictimai xüsusiyyətlərə malikdir. Təbii imkanların sayəsində insanın zövqü müəyyən səviyyələrə çatır. Bu təbii imkanların gerçəkliyə keçməsi prosesinin inkişafı zövqün inkişafına da səbəb olur. Bu baxımdan da, o, həyatda qazanılır, həyatla bağlı olur. Lakin bu zaman məhz həyatın özündə məxsusi estetik vəziyyətlər, qeyri–adi imkanları, fövqəladə qabiliyyətləri də unutmağı, danmağı və ya **formal** məntiqə, siyasi-ideoloji məqsədə əsaslanıb yerli–yersiz rədd etməyi də əsaslı hesab etmirik. Məsələn, marksist estetiklər estetik zövqə, eyni zamanda, digər estetik idrak formalarına yalnız praktikada və ya əməkdə konkret-emosional halda təzahür edən proses kimi baxaraq, açıq-aydın birtərəfli mövqe tuturlar: "Marksist estetikaya görə isə estetiklik həyatla əlaqədə... özü də yalnız praktikada konkret-emosional halda təzahür edir". Belə bir mövqedə, onlar estetik zövqün (həmçinin bəzi estetik keyfiyyətlərin tərkibinə daxil olan insanın fitri qabiliyyət məqamlarını) kölgədə qoyurlar. Onlar öz baxışlarında belə bir fikri əsas tuturlar ki, guya estetik zövq əmək sayəsində qazanılmış "fərdin praktik qabiliyyətidir". Həm də bu qabiliyyət yalnız əmək fəaliyyətində qazanılır və tərbiyə edilir. Belə mülahizələrində bəzən fitri qabiliyyətlərə ötəri də olsa toxunmaq məcburiyyətilə üzləşdikdə belə, onlar solğun və kölgəli seyretmə mövqeyindən uzaqlaşa bilməmişlər.

Bu münasibət birtərəfli, yarımçıq olduğundan estetik zövqü bütöv və mükəmməl əhatə edə bilməz, fikrimizcə, estetik zövq həm anadangəlmə-təbii hal, həm fenomen xüsusiyyət, həm qeyri–adi, anadangəlmə bağlı fitri keyfiyyət, həm də həyatda qazanılan fərdi qabiliyyətdir.

Anadangəlmə və həyatda qazanılan estetik qabiliyyət biri-birinə qarşı çevrilən amillər deyildir, əksinə biri digərini tamamlamaqda daha əlverişlidir. Buna görə də onların vəhdətini bu və ya digər formalarda görmək mümkündür. Bəzən anadangəlmə fitri qabiliyyət həyati təcrübəyə daha ciddi nüfuz edir, bu zaman o adi qabiliyyətlərdən daha çox məhsuldar olur. Bəzən də estetik məhsuldarlıq ictimai həyatın fərd üzərində buraxdığı təsirlə arta və ya ölçülə bilər. Birinci halda anadangəlmə fitri qabiliyyət, ikinci halda ictimai-estetik təcrübəyə bağlılıq diqqəti cəlb edir.

Bundan əlavə, insanda irsi və ya fitri-qabiliyyət müxtəlif səviyyəli olduğu kimi, adi qabiliyyət də müxtəlif səviyyəlidir. Bunların mövcud səviyyələri özlərinə məxsus rola malik olur. Keçmiş, irsi zənginlik və ya təhtəlşüurun fəallığından ya da fitrən verilmiş ilhamın təbii coşğunluğundan və qeyri–adi təxəyyül gücündən doğan fitri qabiliyyət ictimai-mənəvi həyatın özünə təzə estetik normalar gətirir. Bu zaman gerçəkliyin özündə bu yeni yaradıcılıq meyarlarının gücü ilə yaşamaq, təsir etmək imkanı estetik keyfiyyətlər yaranır. Bu keyfiyyətlər ictimai-mənəvi həyatın məzmununa uyğun ol-

duğundan, hətta onu zənginləşdirən hala çevrilir.

Adi qabiliyyət müəyyən şəraitin, ictimai və bədii mühitin təsirilə formalaşır. Estetik meyarları öyrənmək, estetik sərvətlərə uyğunlaşmaq, çoxluğun rəyini ifadə etmək, məlum (özünə qədərki) meyarlar əsasında qiymətləndirmək yolları ilə inkişaf tapır. Bu qabiliyyət formaları mənəvi–estetik həyatla yaradıcı və bərpaedici imkanları ilə ya da estetik mühitə təsir etmək və estetik mühitdən təsir almaq xüsusiyyətləri ilə fərqləndirilir. Lakin bu fərq onlardan hansısa birinin yalnız mümkünlüyünü söyləməyə əsas vermir. Xüsusiyyətlərinə görə fərqlənsələr də estetik zövqün yaranmasında və inkişafında özlərinə məxsus rol oynayırlar. Bu da estetik zövqun fərdiliklə bağlılığını təşkil edən amillərdən biridir.

Estetik zövqün müxtəlifliyi məsələsində də fərdiliyin öz "payı" vardır. Hər bir insan müxtəlif şüur səviyyəsinə, ictimai mövqeyə, coğrafi məkana, zəmanəsinin mənəvi məfkurə yükünə, dövrünün sosial-siyasi qanunlarına, acılı-şirinli ömür qismətinə və s. malikdir. Bu sürəkli, mürəkkəb və ziddiyyətli həyat tərzi insana, onun estetik şüuruna təsirsiz qalmaya bilməz.

Gerçəkliyin estetik idrakı prosesində estetik zövqün özünəməxsus mövqeyi vardır. O, bir tərəfdən estetik duyğunun, estetik hissin, estetik təlatümün, estetik həyəcanın, estetik qavrayışın müəyyən ölçüdə estetik nəticələrini özündə birləşdirir. Digər tərəfdən, estetik qiymətləndirmənin xüsusi formada ilkin əsasına çevrilir. Bu mənada da estetik zövq estetik idrakın mühüm keyfiyyətlərindən biridir.

## ƏDƏBİYYAT


1. Асланов А. Aristotel və onun poetikası, kitab: Aristotel, Poetika. Bakı, 1997, 192 s.
2. Кант И. Сочинения. Т.4, Москва, «Мысль», 1965, 544 с.
3. Гегель Г.Ф. Сочинения, т. XII. М. 1938, 471 с.
4. Столович Л.Н. Категория прекрасного и общественный идеал. М. 1969, 352 с.
5. Эстетическое сознание и процесс его формирования. М.1981, 254 с.


## МЕСТО ПОНЯТИЯ " ЭСТЕТИЧЕСКОГО ВКУСА" В ПРОЦЕССЕ ЧУВСТВЕННОГО ПОЗНАНИЯ


ОСМАН ЭФЕНДИ


## АННОТАЦИЯ


В статье анализируется содержание понятия "эстетический вкус" с точки зрения истории эстетического мировозрения; на научно – теоретической основе рассматриваются различные элементы, составляющие данные понятия, его объективные и субъективные стороны.